https://doi.org/10.59849/2410-5600.2025.1.94

UOT: 82-1.512.162.

**Nərminə Salmanlı**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç. 26*
*e-mail: narmina.salman@mail.ru*

# SEYİD ƏZİM ŞİRVANİ İRSİNƏ MULTİDİSSİPLİNAR YANAŞMA

**Xülasə**

Məqalə Azərbaycan maarifçiliyinin görkəmli nümayəndəsi Seyid Əzim Şirvani yaradıcılığının multidissiplinar tədqiqinə həsr olunub. Seyid Əzim Şirvani ədəbiyyat, fəlsəfə, təhsil, estetika və mədəniyyət sahələrində dərin iz qoymuş şairlərdən biridir. Şairin irsinə multidissiplinar yanaşma, onun yaradıcılığının yalnız bədii dəyərinin deyil, həm də fəlsəfi, pedaqoji və mədəniyyət tarixindəki əhəmiyyəti qədər aktualdır.

Şirvani, əsərlərində milli kimliyi, mənəvi və əxlaqi dəyərləri tərənnüm etmiş poeziyasında, gözəllik anlayışının insan mənəviyyatı ilə vəhdətini yaratmış, təhsilin cəmiyyətin və şəxsiyyətin formalaşmasında mühüm rol oynadığını daim vurğulamışdır. O, gözəllik və harmoniya anlayışlarını estetik və mənəvi tərbiyənin ayrılmaz tərkib hissəsi hesab edirdi.

Seyid Əzim Şirvani irsinə multidissiplinar yanaşma, şairin irsini müxtəlif aspektlərdən araşdırmağa, onun dövrünə və müasirliyə təsirini dərk etməyə istiqamətləndirir. Həmçinin, onun yaradıcılığını daha dərin və hərtərəfli şəkildə təhlil etməyə, onun cəmiyyətin sosial, mədəni və mənəvi inkişafına verdiyi töhfələri müasir dövr üçün aktual kontekstdə yenidən qiymətləndirməyə imkan yaradır.

***Açar sözlər:*** *Seyid Əzim Şirvani, şair, ədəbiyyat, multidissiplinar yanaşma, yaradıcılıq*

## Giriş

*Seyid Əzim Şirvani (1835-1888) XIX əsrin ikinci yarısında Azərbaycan ədəbi-mədəni həyatında dərin iz buraxmış bir şəxsiyyətdir. Azərbaycan ədəbiyyatının ən parlaq nümayəndələrindən biri olub, həm bədii, həm də maarifçilik sahəsində dəyərli töhfələr vermişdir. Onun əsərləri bədii-estetik dəyəri ilə yanaşı, dövrün [1, s.52] fəlsəfi, ictimai və mənəvi problemlərini əks etdirən kompleks bir irsdir. Multidissiplinar yanaşma vasitəsilə Şirvaninin yaradıcılığı ədəbiyyatın, fəlsəfənin, sosiologiyanın, pedaqogikanın və dilçilik elminin qarşılıqlı əlaqəsi fonunda tədqiq oluna bilər. Bu, təkcə şairin irsinin dərinliyini üzə çıxarmır, həm də onu müasir dövrün problemlərinə tətbiq etməyə imkan yaradır.*

*Seyid Əzim Şirvani Azərbaycan ədəbiyyatında yalnız maarifçi deyil, həm də estetik düşüncə və bədii ifadənin dərinliyi ilə seçilən bir şəxsiyyətdir. Onun yaradıcılığında ədəbiyyatın əsas missiyası təkcə oxucunu maarifləndirmək deyil, həm də estetik zövq oyatmaq, gözəllik hissini tərbiyə etməkdir. Şirvaninin əsərlərində estetik ideal, gözəllik anlayışı və bədii yaradıcılığın funksiyası çoxqatlı və zəngin şəkildə ifadə olunur.*

## Seyid Əzim Şirvani irsinə multidissiplinar baxış

Lirik şeirləri və kəskin satiraları ilə böyük şöhrət qazanmış Seyid Əzim Şirvani XIX əsr Azərbaycan poeziyasının ən qüdrətli nümayəndəsidir. Onun maarifçilik ideyaları, təhsil metodları və

pedaqoji prinsipləri Azərbaycan cəmiyyətinin intellektual inkişafında mühüm rol oynamışdır. Seyid Əzim Şirvani yaradıcılığının multidissiplinar tədqiqi, onun təhsil və pedaqoji irsini müxtəlif aspektlərdən öyrənərək daha dərin və hərtərəfli nəticələr əldə etməyə imkan verir.

Seyid Əzim Şirvani təkcə yazıçı və şair deyil, həm də maarifçi idi. O, Şamaxıda açdığı məktəb vasitəsilə təhsilin inkişafına mühüm töhfələr vermiş, uşaqların və gənclərin təlim-tərbiyəsində milli dəyərləri əsas götürməklə yanaşı, Avropa təhsil sisteminin müsbət cəhətlərini də tətbiq etməyə çalışmışdır. O, insanın əxlaqi və intellektual inkişafının təhsillə mümkün olduğuna inanırdı və bu fikri öz əsərlərində geniş şəkildə aşılamışdır.

Şirvani Azərbaycan ədəbi dilinin inkişafında əhəmiyyətli rol oynamışdır. Onun şeirlərində mövcud olan üslub zənginliyi Azərbaycan ədəbi dilinin inkişafı üçün qiymətli nümunədir.

Şirvani həmçinin, Azərbaycan milli kimliyinin formalaşmasında da əsaslı işlər görmüşdür. Öz əsərlərində milli adət-ənənələri qoruyub saxlamaq və təbliğ etməklə yanaşı, eyni zamanda yeniliklərə və inkişaflara açıq olduğunu hər zaman göstərmişdir. Əsərlərindəki bu istiqamət-multidissiplinar yanaşma milli özünüdərk və mədəni irsin qorunmasında mühüm əhəmiyyətə malikdir [6, s.120].

Seyid Əzim Şirvani irsini mədəniyyət və milli kimlik baxımından müxtəlif elm sahələrinin işığında təhlil etməklə aşağıdakı nəticələrə bölmək olar:

- Şirvaninin əsərləri milli kimliyin qorunmasında ədəbiyyatın rolunu dərindən anlamağa imkan yaradır;
- Onun fəlsəfi ideyaları milli dəyərlərin formalaşmasına öz təsirini göstərir;
- Şirvaninin ana dilində olan yaradıcılığı milli kimliyin dil vasitəsi ilə necə qorunduğunun isbatıdır. və s.

Şirvaninin yaradıcılığı mədəniyyətin, dilin, fəlsəfənin və milli dəyərlərin qarşılıqlı təsirini tədqiq etmək üçün zəngin bir tədqiqat sahəsi təqdim edir. Onun əsərləri həm tarixi, həm də müasir dövrdə milli identikliyin qorunması üçün aktual olaraq qalır.

Seyid Əzim Şirvani irsində ədəbiyyat və estetika bir-birini tamamlayan və qarşılıqlı şəkildə zənginləşdirən anlayışlar kimi çıxış edir. Onun yaradıcılığı bədii və estetik dəyərlərin Azərbaycan ədəbiyyatında nə dərəcədə yüksək səviyyəyə çatdığını göstərir. Şirvaninin əsərlərində gözəllik anlayışı yalnız poeziyanın forması ilə məhdudlaşmır, onun dərin mənəvi və fəlsəfi məzmununda da öz əksini tapır. Multidissiplinar yanaşma Şirvaninin bu zəngin irsini geniş miqyasda öyrənmək və müasir ədəbiyyat nəzəriyyəsi ilə əlaqələndirmək üçün geniş imkanlar təqdim edir:

- Onun gözəllik anlayışının fəlsəfi əsaslarını təhlil etmək mümkündür;
- Şirvaninin əsərlərində insanın daxili aləminin estetik təsirini araşdırmaq olar;
- Şairin əsərlərində dil və bədii təsvir vasitələrindən istifadə etməklə təsvir edilən cəmiyyətin estetik tərbiyəsinə təsiri öyrənilə bilər.

Şirvaninin yaradıcılığı ədəbiyyatşünaslıq [3, s.225-226] baxımından müxtəlif janrlarda araşdırılmağa layiqdir. Onun qəzəlləri klassik Şərq poeziyasının ənənələrini yaşadır, lakin bu ənənələrə yeniliklər qatır. O, yalnız fərdi hiss və duyğuları deyil, cəmiyyətin ağrılarını, sosial ədalətsizlikləri və mənəvi problemləri də qəzəl və rübailərində əks etdirir. Onun satirik şeirləri xüsusilə diqqətəlayiqdir. Bu əsərlərdə dövrünün nadanlığı, rüşvətxorluğu, cəhaləti və digər neqativ halları tənqid edilir. Bu baxımdan, Şirvani Azərbaycan poeziyasının təkcə bədii deyil, həm də sosial güzgüsünü yaratmışdır. Şirvani klassik Azərbaycan poeziyasını yüksək səviyyəyə çatdıran və onu yeni fikirlərlə zənginləşdirən ədəbi şəxsiyyət kimi tanınır. Onun yaradıcılığının multidissiplinar tədqiqi əsasən üç istiqamətdə diqqəti cəlb edir:

- Klassik şeir ənənələrinin davamı və yeniliklər: Şirvani qəzəl, qəsidə, rübai, müxəmməs kimi janrlarda əsərlər yazaraq, klassik Şərq poeziyasının mövzu və forma xüsusiyyətlərini qoruyub saxlamışdır. Lakin o, bu ənənələrə dövrün yeni problemlərini və sosial narahatlıqları daxil etmişdir;
- Şirvani dövrünün ən mühüm sosial problemlərini satirik şeirlərində ifşa etmişdir. O, cəhaləti, rüşvətxorluğu, dini mövhumatı və təbəqələşməni tənqid edərək, cəmiyyətin mənəvi və intellektual inkişafını təbliğ etmişdir;

− Onun şeirlərində maarifçilik ideyaları, təhsilin vacibliyi, qadınların hüquqları və ədalət anlayışları xüsusi yer tutur. O, şeirləri vasitəsilə cəmiyyətdə sosial ədaləti bərqərar etməyə çalışmışdır.

Məlumdur ki, bədii ədəbiyyat təkcə müəllifin fikirlərini əks etdirmir, həm də müəyyən dərəcədə yarandığı dövrün mədəni təcrübəsini sistemləşdirən bir vasitədir. Şirvani yaradıcılığında tarix və ictimai dəyişikliklərə nəzər yetirsək görərik ki, o, XIX əsrdə Şərq dünyasında baş verən böyük siyasi və sosial dəyişikliklərin şahidi olmuşdur. Bu dəyişikliklər onun əsərlərinə də öz təsirini göstərmişdir. O, feodal [4, s.202] quruluşun köhnəlmiş strukturunu tənqid edir, maarifçiliyin və yeniləşmənin tərəfdarı kimi çıxış edirdi. Şirvaninin əsərlərində Rusiyanın Qafqaza təsiri, Qərb və Şərq dəyərləri arasında toqquşmalar, yerli idarəetmədə mövcud olan problemlər öz əksini tapmışdır. Şirvani irsinə multidissiplinar yanaşdıqda, əsərlərindəki "Avropaya məhəbbət və Şərqə pərəstiş" ideyası yalnız dövrün siyasi reallığını deyil, həm də mədəniyyətlərin qarşılıqlı təsirini əks etdirən aşağıdakı tarixi və ictimai mövzular diqqəti çəkir:

– *Feodalizmin tənqidi* - Feodal sistemin köhnəlmiş və ədalətsiz strukturlarını tənqid edən Şirvani, yeni maarifçi baxışların tərəfdarı idi;

– *Maarifçilik hərəkatı* - O, dövrün maarifçi ziyalıları ilə birgə Azərbaycan cəmiyyətinin inkişafı üçün yeni təhsil və təlim sisteminin zəruriliyini vurğulamışdır;

– *Qərb və Şərq dəyərləri arasında qarşıdurma* - Şirvani Şərq mədəniyyətinə bağlı qalsa da, Qərbin elmi və təhsil sahəsindəki nailiyyətlərini qəbul edirdi. Bu qarşılıqlı təsir onun yaradıcılığında öz əksini tapmışdır.

Seyid Əzim Şirvaninin dini baxışları İslamın əxlaqi prinsiplərinə əsaslanmış, lakin mövhumatdan uzaq, rasional və humanist çərçivədə təqdim edilmişdir. Şairə görə, din yalnız ibadət deyil, insanları mənəvi təmizliyə və əxlaqi davranışa çağıran bir vasitədir. O, dini əxlaqi və sosial tərbiyə üçün əvəzolunmaz vasitə kimi qiymətləndirirdi.

Şirvani dini maarifçiliklə birləşdirərək, mövhumatı tənqid etmişdir. Onun fikrincə, İslamın əsas qayəsi insanları cəhalətdən qurtarmaq və onları maariflənməyə sövq etməkdir. Şairin yaradıcılığında sufizmin təsirləri də görünür. O, insanın mənəvi təmizliyə çatmasını yalnız dini ibadətlə deyil, daxili zənginlik və özünüdərk ilə əlaqələndirirdi. Bu, onun dini baxışlarını daha geniş fəlsəfi çərçivədə qiymətləndirməyə imkan yaratmışdır.

Onun fikrincə, din insanların sosial bərabərliyini təmin etmək və ədaləti bərqərar etmək üçün bir sistem yaradır. O, dini mənəvi dəyərlərin qoruyucusu kimi qəbul edir, lakin dinin yalnız ibadət üçün deyil, cəmiyyəti maarifləndirməyə və sosial bərabərliyi, ədaləti təmin etməyə xidmət etməli olduğunu irəli sürürdü. Bu yanaşma onu dövrünün mühafizəkarlığından fərqləndirirdi. Ümumiyyətlə Şirvaninin fəlsəfi baxışları Şərq sufizmindən təsirlənsə də, müasir humanizm və əxlaqi dəyərlərlə zənginləşdirilmişdir. Şirvani fəlsəfi baxımdan Şərq sufizminin təsiri altında olmuş, lakin onun fəlsəfi dünyagörüşü daha geniş miqyasda sosial və əxlaqi problemləri əhatə etmişdir.

Seyid Əzim Şirvaninin estetik dünyagörüşündə də fəlsəfi dərinlik mühüm yer tutur. Şirvani gözəlliyi həqiqətin təcəssümü kimi görürdü. Şairə görə, gözəllik yalnız xarici forma deyil, eyni zamanda əsərin daxili məzmununda və ideyasında təzahür etməlidir. Bu baxımdan, onun yaradıcılığı həm forma, həm də məzmun baxımından yüksək estetik dəyərlərə malikdir. Şirvani yaradıcılığında dil və ifadə vasitələri estetik təsirin əsas elementləri kimi çıxış edir. O, əsərlərində sadə və aydın dildən istifadə edərək bu ideyalarını geniş oxucu kütləsinə çatdırmağa çalışmışdır. Sadəlik onun estetik [2, s.62] baxışlarının əsasıdır. Şirvaninin şeirlərində təsvir vasitələri, məcazlar və simvollar bədii-estetik təsiri artırmaq üçün məharətlə işlənmişdir. Bu vasitələr onun əsərlərinə dərin poetik və məna qazandırır. Yaradıcılığına multidissiplinar baxış zamanı əsərlərində gözəlliyin tərənnümçüsü kimi çıxış etdiyinin daim şahidi oluruq:

– Şirvaniyə görə, ədəbiyyatın əsas vəzifələrindən biri insanın daxili dünyasını zənginləşdirmək və onu mənəvi gözəlliklə harmoniyaya gətirməkdir. Onun şeirlərində təbiət təsvirləri, insan xarakterinin bədii təqdimatı estetik zövq oyatmaq məqsədini daşıyır;
– Şirvani əsərlərində estetik məna ilə yanaşı, milli kimliyin qorunmasını da prioritet hesab edir. Bu mənada, onun ədəbiyyatı estetik dəyəri ilə yanaşı, həm də maarifləndirici və tarixi funksiyaya malikdir. Şirvaninin əsərlərində estetik ideal həm mənəvi, həm də fiziki gözəlliklə əlaqələndirilir;
– Onun şeirlərində təbiət təsvirləri xüsusi yer tutur. Şirvani təbiətə yalnız estetik obyekt kimi deyil, həm də insanın daxili dünyası ilə bir harmoniya kimi yanaşır. Təbiət təsvirləri onun estetik baxışlarının əsasını təşkil edir;
– Şirvani insanın mənəvi gözəlliyini daha üstün hesab edir və bədii təsvirlərində bunu ön plana çəkir. Əxlaqi kamillik onun estetik idealının əsasını təşkil edir.

Seyid Əzim Şirvani yaradıcılığında sosiologiya və gender problemləri məsələsi də multidissiplinar baxış nöqteyi-nəzərindən çox maraqlıdır. O, öz əsərlərində cəmiyyətdəki təbəqələşməni, maarifçiliyin aşağı təbəqələrə çatdırılmasının vacibliyini, qadın hüquqlarını və təhsilin əhəmiyyətini vurğulamış, qadınlara dair şeirlərində onların maariflənməsinin və ictimai həyatda iştirakının cəmiyyətin tərəqqisi üçün vacib olduğu qeyd etmişdir. Bu yanaşma, xüsusilə XIX əsrin şəraiti nəzərə alındıqda, irəliləyişçi bir baxış kimi qiymətləndirilir.

## Nəticə

*Seyid Əzim Şirvani əsərlərində klassik poeziya ənənələrinə üstünlük versə də, onun yaradıcılığında daim xalq poeziyasının sadəliyi və təsir gücü nəzərə çarpır. Onun qəzəlləri hər zaman klassik şeir ənənələrini yaşadır, xalqın ruhunu ifadə edən qoşmaları isə geniş oxucu kütləsinə təsir edir. Bu sintez ədəbiyyatda estetik harmoniya yaradır. Şirvaninin əsərləri yalnız fərdi zövqü inkişaf etdirməklə kifayətlənmir, həm də cəmiyyətdə tərbiyəni gücləndirir. Onun əsərləri oxucuda gözəllik hissini oyatmaqla yanaşı, həm də bu hissi tərbiyə edir.*

*Seyid Əzim Şirvaninin irsi Azərbaycan ədəbiyyatının və mədəniyyətinin ən qiymətli sərvətlərindən biridir. Onun əsərləri müxtəlif elmlərin qarşılıqlı əlaqəsi fonunda araşdırılmağa layiqdir. Şirvaninin əsərlərində əks olunan bədii, fəlsəfi və sosial mesajlar bu gün də aktualdır. Onun fəlsəfi baxışları isə maarifçilik və humanizm prinsiplərinə əsaslanaraq, insan və cəmiyyətin inkişafını prioritet hesab edir. Şirvani yalnız dini lider və şair deyil həm də dövrünün dərin fəlsəfi təfəkkürə malik ziyalısı kimi dəyərləndirilir. Multidissiplinar yanaşma ilə Seyid Əzim Şirvaninin irsi daha dərindən öyrənilə və gələcək nəsillər üçün daha yaxşı dəyərləndirilə bilər.*

## Ədəbiyyat siyahısı:

1. Ağabəyli, V. Sosiologiya və gender məsələləri üzrə Azərbaycan ədəbiyyatında tədqiqatlar / "İngilis və Azərbaycan ədəbiyyatında genderin bədii inikası" / - Bakı: AMEA , - 2015. - 150s.
2. Azərbaycan klassik ədəbiyyatı antologiyası /- Bakı: Azərbaycan tərcümə mərkəzi, -2016.- 672 s.
3. Xuduoğlu, Ş. Şirvani əsərlərinin elmi nəşrləri / - Bakı: Azərnəşr, -1994. - 424 s.
4. Köçərli, F. Azərbaycan ədəbiyyatı tarixi / - Bakı: Şərq-Qərb, - 1927. -1080 s.
5. Qasımzadə, F. Maarifçilik və XIX əsr Azərbaycan ədəbiyyatı haqqında tədqiqatlar / -Bakı: Azərbaycan dövlət nəşriyyatı, - 1956. - 452s.
6. Şərq fəlsəfəsi və poeziyası üzrə müasir araşdırmalar / Şərq fəlsəfəsi problemləri, - Bakı: AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, - 2019. -200s.

**Narmina Salmanli**

## A multidisciplinary approach to the legacy of Seyid Azim Shirvani

***Summary***

The article is devoted to multidisciplinary study of the creativity of Seyid Azim Shirvani, a prominent representative of the Azerbaijani enlightenment. Seyid Azim Shirvani is one of the poets who left a deep mark in the fields of literature, philosophy, education, aesthetics and culture. The multidisciplinary approach to the poet's legacy is as relevant as the importance of not only the artistic value of his work, but also in philosophical, pedagogical and cultural history.

Shirvani sang national identity, moral and moral values in his works, created the unity of the concept of beauty with human spirituality, constantly emphasized the important role of education in the formation of society and personality. He considered the concepts of beauty and harmony an integral component of aesthetic and spiritual education.

A multidisciplinary approach to the legacy of Seyid Azim Shirvani directs the poet to explore his legacy from different angles, to understand its influence on his ERA and modernity. It also makes it possible to more deeply and comprehensively analyze his work, to re-evaluate his contribution to the social, cultural and spiritual development of society in the context relevant to modern times.

***Keywords:*** *Seyid Azim Shirvani, poet, literature, multidisciplinary approach, creative*

*Filologiya üzrə fəlsəfə doktoru,* ***Rəna İskəndərli***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*